# Qürurun zirvəsi

## güc və birliyin rəmzi

**Azadlıq meydanında 2020-ci il dekabrın 10-da baş tutmuş möhtəşəm Zəfər paradı Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldı. Bir daha sübut edildi ki, Vətən sevgisi və xalqın birliyi qarşısında heç bir işğalçı qüvvə tab gətirə bilməz. Torpaqlarını, milli qürurunu, şərəfini qorumağa hazır olan bir xalq üçün heç bir əngəl aşılmaz deyil. Bu tarixi hadisə Azərbaycan xalqının dövlət başçısının ətrafında sıx birləşməsi və ordumuza bəslənən böyük inamın möhtəşəm nəticəsi idi.**






Otuz il işğal altında qalmış müqəddəs torpaqlarımız qəhrəman şəhidlərimizin qanı, əsgər və zabitlərimizin hünəri, qazilərimizin cəsarəti sayəsində azad edildi. Bu Qələbə həm tarix, həm də gələcək nəsillər üçün bir qürur simvoluna çevrildi. Əzəli torpaqlarımızın düşməndən azad edilməsi yalnız bir hərbi zəfər deyil, milli birliyin və bütövlüyün zəfəri idi. Zəfər paradı bizə bir daha göstərdi ki, "məğlubedilməz erməni ordusu" nağılı əslində boş bir xülyadan, bir sabun köpüyündən başqa bir şey deyilmiş.

Xüsusi vurğulanmalıdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə iştirak etdiyi bu tədbirdə düşməndən qənimət kimi ələ keçirilmiş silah-sursat və texnika nümayiş etdirildi. Zəfər paradı həm də dost və qardaş ölkə olan Türkiyənin sevincimizi də, kədərimizi də bölüşdüyünü bir daha nümayiş etdirdi. Zəfər paradı yalnız hərbi qələbənin deyil, həm də Azərbaycan və Türkiyənin sarsılmaz birliyinin simvolu idi. Azadlıq meydanında dalğalanan Azərbaycan və Türkiyə bayraqları bir millət, iki dövlət anlayışının əyani ifadəsi oldu. Bu gün tariximizin ən şərəfli anları sırasında öz layiqli yerini almışdır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı qələbənin əzəmətini ifadə edən tarixi sözlərlə yadda qaldı: "Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir".

Azad olunan ərazilərimizdə qaldırılan üçrəngli bayraqlarımız da xalqımızın böyük Qələbəsinin simvolu kimi meydanda dalğalanması əvəzsiz və təkrarolunmaz hadisə kimi tarixə həkk olundu. Vətən müharibəsində xalqın Ali Baş Komandanının ətrafında yumruq kimi birləşməsi dünya üçün də bir örnək oldu. Azərbaycan bir daha sübut etdi ki, bir xalq, bir dövlət, bir ordu olaraq hər zaman milli dəyərlərini və Vətənini qorumağa qadirdir. Prezident İlham Əliyev çıxışında 44 günlük müharibənin hər gününün xalqımız üçün bir qəhrəmanlıq dastanı olduğunu vurğuladı. Ermənistanın məğlubiyyəti ilə nəticələnən bu müharibə Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi ilə tarixə qızıl hərflərlə yazıldı. Ən şanlı səhifələrdən biri isə Şuşa şəhərinin azad edilməsi idi.

Ümumiyyətlə, Azərbaycan Ordusu öz qüdrətini daha da artıraraq hərbi sahədə yeni islahatlar həyata keçirir. Müasir hərbi texnika ilə təchiz olunan ordumuzun imkanları genişlənib, yeni hərbi hissələr istifadəyə verilib. Azərbaycan və Türkiyə arasında keçirilən genişmiqyaslı birgə hərbi təlimlər isə iki qardaş ölkənin hərbi əməkdaşlığını daha da gücləndirib.

Zəfər yürüşü təkcə keçmişimizin uğuru deyil, gələcəyimizin də güvənidir. Azərbaycan xalqı öz ordusunun qüdrətinə inanır və onun uğurlarını qürurla izləyir. Möhtəşəm tədbir, həm də ordumuzun gücünü, texniki üstünlüyünü və modernləşmə səviyyəsini göstərmək üçün bir platforma oldu. Paraddan keçən 3000 hərbçi, müxtəlif qoşun növlərini təmsil edən yüksək nizam-intizamlı əsgər və zabitlər, eləcə də 150-dək hərbi texnika Azərbaycanın güclü hərbi potensialını göz önünə sərdi. Hərbi texnikanın nümayişi zamanı xüsusi təyinatlı avtomobillərdən tutmuş zirehli tanklara, hava hücumundan müdafiə sistemlərindən artilleriya və əməliyyat taktiki raket komplekslərinə qədər ən müasir silahlar parad meydanında öz əzəmətini göstərdi. Xüsusilə pilotsuz uçuş aparatlarının nümayişi bir daha sübut etdi ki, Azərbaycan Silahlı Qüvvələri XXI əsrin ən qabaqcıl texnologiyaları ilə təchiz olunmuş və döyüş meydanında innovativ həlləri tətbiq edən bir ordudur. Xüsusi qeyd edilməli bir məqam isə Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad edilmiş ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı iki mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan unikal kompozisiya idi. Üzərində "Qarabağ Azərbaycandır!" şüarının həkk olunduğu bu möhtəşəm tablo yalnız bir sənət nümunəsi deyil, həm də tarixi bir bəyanat idi. Bu kompozisiya hər bir azərbaycanlıya sonsuz qürur hissi yaşatdı və dünyaya bu gerçəyi bəyan etdi: Azərbaycan xalqı öz torpaqlarının əsl sahibidir və bu, əbədi olaraq belə qalacaq! Ümumiyyətlə, Ermənistan ordusundan qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tanklarının nümayişi qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqi oldu.

Azərbaycan ordusu təkcə regionun ən güclü hərbi qüvvələrindən birinə çevrilməyib, həm də yüksək peşəkarlıq, nizam-intizam və texniki hazırlıq baxımından yeni bir zirvəyə yüksəlib. Belə ki, 2023-cü il sentyabrın 19-da başlanan lokal antiterror tədbirləri yalnız bir gün ərzində həyata keçirilərək düşmənin qalıqlarına öldürücü zərbə vurdu. Bu qətiyyətli əməliyyatla Xankəndidəki qanunsuz xunta rejimi tərk-silah edildi. Ən qürurverici məqam isə onilliklər boyu xalqımıza meydan oxuyan cinayətkar rejimin rəhbərlərinin xalqın gözü qarşısında ədalət mühakiməsinə təslim edilməsi oldu. Bu səhnə Azərbaycan xalqının haqq yolunda apardığı mübarizənin nə qədər əzəmətli və təsirli olduğunu bir daha dünyaya göstərdi. Uzun illər xalqımıza qarşı törədilən cinayətlərin baş planını hazırlayanlar ədalət qarşısında cavab vermək üçün əlləri qandallı Bakıya gətirildi. Bu tarixi hadisə təkcə Azərbaycan Ordusunun peşəkarlığının deyil, həm də milli iradəmizin, haqq işimizdəki qətiyyətimizin möhtəşəm bir nümunəsi oldu. Xankəndidə qondarma rejimin süqutu, Azərbaycan xalqının öz əzəli torpaqlarında yenidən söz sahibi olmasının və beynəlxalq hüququn üstünlüyünü təmin etməsinin canlı sübutuna çevrildi. Düşmənin revanşist qüvvələrinə vurulan bu sonuncu və öldürücü zərbə göstərdi ki, Azərbaycan artıq haqqını müdafiə edə bilən və hər hansı təxribatı dərhal dəf edən bir gücdür.

Zəfər paradı həm də Azərbaycanın ordusuna olan güvənin, xalqla hərbçilər arasındakı sarsılmaz birliyin simvoluna çevrildi. Bu gün Azərbaycan Silahlı Qüvvələri təkcə torpaqlarımızın müdafiəsinə deyil, həm də milli qürurumuzun qorunmasına xidmət edən bir güc olaraq Vətənin müdafiəsinə daim hazırdır. Hər bir paraddakı addım səsləri xalqımızın qələbə ruhunun və gələcəyə inamının simvolu kimi yaddaşlara həkk olundu. Bu qələbə Azərbaycan Ordusunun yalnız hərbi qüdrətinin deyil, həm də onun yenilməz iradəsinin və strateji bacarığının parlaq göstəricisi idi. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında öz ərazi bütövlüyünü təmin edərək regionda sülh və sabitliyin təminatçısına çevrildi. Bu tarixi hadisələr bir daha sübut etdi ki, Azərbaycan Ordusu hər zaman Vətənə, ədalətə və sülhə xidmət edən güclü və etibarlı bir qaladır!

**Nurlan ABDALOV,**
**"Respublika".**